**Güney Azərbaycanın istiqlalçı təşkilatları tərəfindən Güney Azərbaycan İstiqlalçılar Birliyinin elan bildirişi**

İşğalçı fars rejimi, milli hərəkatı parçalayıb, əsas amalından uzaqlaşdıraraq, ideologiyasız və öz nəzarəti altında olan bir hərəkata çevirməyi qarşıya məqsəd qoyub. Bu məqsədlə min bir oyundan çıxan İran-fars rejimi hətta Hizbullah və s. belə terror təşkilatları qurub, maliyələşdirməkdən də çəkinmir. Sözsüz ki, Güney Azərbaycan Milli Hərəkatının istiqlalçı təşkilatları İranın bu fitnəkarlıqlarını təsirsizləşdirməyi və müstəqillik uğrunda mücadiləni daha effektiv davam etdirməyi qarşıya məqsəd qoyub.

Güney Azərbaycanın istqilal mücadiləsinin daha kəskin, güclu və mütəşəkkil olması artıq bir zərurətdir. Bu günədək göstərilən səylər nəticəsində müəyyən birlik və ittifaqlar yaransa da, ancaq düşüncədə birlik və hədəfdə şəffaflıq olmadığı üçün bu birliklər uğursuzluğa düçar olmuş, arzu olunan nəticə əldə olunmamışdır.

Güney Azərbaycanın istiqlal mücadiləsinin daha effektiv aparılması məqsədilə biz eyni düşüncəli, eləcə də hədəfdə şəffaf strateji və taktikə malik olan istiqlalçı təşkilatlar, uzun müzakirələrdən sonra Güney Azərbaycan İstiqlalçılar Birliyini elan edirik. Güney Azərbaycan İstiqlalçılar Birliyininin başqanı olaraq Əjdər Tağızadə seçilmişdir. Bu gündən etibarən Güney Azərbaycan İstiqalalçılar Birliyi tərkibində istiqlalçı təşkilatlar kimi birgə mücadiləmizə davam edəcəyik. Güney Azərbaycan İstiqlalçılar Birliyinin qapısı bütün istiqlalçı təşkilatlara açıqdır. Açıq şəkildə istiqlal yolunda mübarizə aparan siyasi təşkilatlar Güney Azərbaycan İstiqalalçılar Birliyinin Platformasını qəbul edtikləri halda bu birliyə üzv olaraq, məsuliyyət qəbul etmələrini və gücumüzü birləşdirməyi arzu edirik. Güney Azərbaycan İstiqlalçılar Birliyi fərdi üzv qəbul etmir və sırf siyasi istiqlalçi təşkilatlar bu quruma üzv ola bilər.

**Qururcu təşkilatlar:**

1- **Güney Azərbaycan Demokratik Türk Birliyi**
2- **Güney Azərbaycan Milli Yol Təşkilatı**
3- **Güney Azərbaycan İstiqlal Partisi**

## گونئي آذربايجانين ايستيقلالچي تشكيلاتلاري طرفيندن گونئي آذربايجان ايستيقلالچيلار بيرليگينين اعلان بيلديريشي

ايشغالچي فارس رئژيمي، ميللي حركاتي پارچالاييب، اساس آماليندان اوزاقلاشديراراق، ايدئولوگيياسيز و اؤز نظارتي آلتيندا اولان بير حركاتا چئويرمه يي قارشيسيا مقصد قويوب. بو مقصدله مين بير اويوندان چيخان ايران-فارس رئژيمي حتّي حزب الله و ساير بئله تئررور تشكيلاتلارى قوروب، ماليه لشديرمكدن ده چكينمير. سؤزسوز كي، گونئي آذربايجان ميللي حركاتينين ايستيقلالچي تشكيلاتلاري ايرانين بو فيتنه كارليقلاريني تاثيرسيزلشديرمه يي و موستقيلليک اوغروندا موجاديلەني داها ائفئكتيو داوام ائتديرمه يي قارشيسيا مقصد قويوب.

گونئي آذربايجانين ايستقيلال موجاديلەسينين داها كسكين، گوجلو و موتشكيل اولماسي آرتيق بير ضرورتدير. بو گونەدک گؤستريلن سعي لر نتيجەسينده معين بيرليک و ايتيفاقلار يارانسا دا، آنجاق دوشونجەده بيرليک و هدفده شفافليق اولماديغي اوچون بو بيرليكلر اوغورسوزلوغا دوچار اولموش، آرزو اولونان نتيجه الده اولونماميشدير .

گونئي آذربايجانين ايستيقلال موجاديلەسينين داها ائفئكتيو آپاريلماسي مقصديله بيز عيني دوشونجەلي، ائله جه ده هدفده شفاف استراتژي و تاكتيكه ماليک اولان ايستيقلالچي تشكيلاتلار، اوزون مذاكيرەلردن سونرا گونئي آذربايجان ايستيقلالچيلار بيرليگيني اعلان ائديريک. گونئي آذربايجان ايستيقلالچيلار بيرليگي نين باشقانى اولاراق اژدر تقى زاده سئچيلميشدير. بو گوندن اعتيباراً گونئي آذربايجان ايستيقلالچيلار بيرليگي تركيبينده ايستيقلالچي تشكيلاتلار كيمي بيرگه موجاديلەميزه داوام ائدەجه ييک. گونئي آذربايجان ايستيقلالچيلار بيرليگينين قاپيسي بوتون ايستيقلالچي تشكيلاتلارا آچيقدير. آچيق شكيلده ايستيقلال يولوندا موباريزه آپاران سياسي تشكيلاتلار گونئي آذربايجان ايستيقلالچيلار بيرليگينين پلاتفورماسيني قبول ائدتيكلري حالدا بو بيرلييه عضو اولاراق، مسئوليت قبول ائتمەلرينى و گوجوموزو بيرلشديرمه يي آرزو ائديريک. گونئي آذربايجان ايستيقلالچيلار بيرليگي فردي عضو قبول ائتمير و صيرف سياسي ايستيقلالچي تشكيلاتلار بو قوروما عضو اولا بيلر .

**قورورجو تشكيلاتلار :**

**1- گونئي آزربايجان دئموكراتيک تورک بيرليگي**
**2- گونئي آزربايجان ميللي يول تشكيلاتي**
**3- گونئي آزربايجان ايستيقلال پارتيسي**

**بیانیه اعلام تشکیل اتحادیه استقلال گرایان آذربایجان جنوبی از سوی سازمانهای استقلال گرای آذربایجان جنوبی**

رژیم اشغالگر فارس با ایجاد تفرقه در جنبش ملی، با هدف دور کردن آن از اهداف اصلی و تبدیل آن به نهضتی بدون ایدئولوژی و تحت کنترل خود تلاش می کند. رژیم فارس- ایران برای این منظور با هزاران بازی سیاسی و فتنه انگیزی حتی از تشکیل سازمانهای تروریستی چون حزب الله و تامین مالی آنها هم خودداری نمی کند. بدون شک سازمانهای استقلال گرای حرکت ملی آذربایجان ضمن خنثی کردن اینگونه فتنه انگیزی رژیم ایران، با هدف تداوم مؤثر مبارزه در راه استقلال آذربایجان جنوبی تلاش خواهند کرد.

حال ضروری است که مبارزه استقلال خواهی آذربایجان جنوبی بیش از پیش سازمان یافته تر و قدرتمندتر گردد. گرچه اتحادیه ها و اتفاق هایی تا حال با تلاشهای مشخصی تشکیل یافته، اما به علت عدم وحدت در تفکر و عدم شفافیت در هدف با شکست روبرو شده و نتایج مطلوب حاصل نشده است.

حال ما به عنوان سازمانهای استقلال گرای دارای تفکری مشابه و واحد و نیز دارای تاکتیک و استراتژی شفاف در هدف، بعد از مذاکرات طولانی با هدف تداوم مؤثر مبارزه استقلال طلبانه آذربایجان جنوبی تشکیل اتحادیه استقلال گرایان آذربایجان جنوبی را اعلام می نماییم. اژدر تقی زاده به دبیر کل اتحادیه استقلال گرایان آذربایجان جنوبی انتخاب گردید. اعلام می کنیم که بعد از این به عنوان سازمانهای استقلال گرا در ترکیب اتحادیه استقلال گرایان آذربایجان جنوبی به مبارزه خود ادامه خواهیم داد. اتحادیه استقلال گرایان آذربایجان جنوبی بر روی تمام سازمانهای استقلال طلب آذربایجان جنوبی باز می باشد. آرزو می کنیم سازمانهای سیاسی که صریحاً در راه استقلال آذربایجان جنوبی مبارزه می کنند در صورت قبول پلاتفورم اتحادیه استقلال گرایان آذربایجان جنوبی عضو این اتحادیه گردیده و با اتحاد، بصورت قدرتمند به مبارزه استقلال طلبانه خود ادامه دهیم. اتحادیه استقلال گرایان آذربایجان جنوبی عضویت فردی را نمی پذیرد و صرفاً سازمانهای سیاسی استقلال گرا می توانند عضو این اتحادیه گردند.

**سازمانهای تشکیل دهنده:**

1- **اتحادیه دمکراتیک ترک آذربایجان جنوبی**
2- **تشکیلات راه ملی آذربایجان جنوبی**

### 3- حزب استقلال آذربایجان جنوبی